**Tarix və onun problemləri, №1 2010**

ALIYEV H.A.
*Sumqayıt Dövlət Universiteti*

# 1991-1993-CÜ İLLƏRDƏ SUMQAYITDA SOSİAL PROBLEMLƏR VƏ ŞƏHƏRDƏ KRİMİNOGEN VƏZİYYƏT

Qeyd etdiyimiz dövrdə Sumqayıt ağır vəziyyətə düşmüş, ciddi ekoloji, sosial-iqtisadi problemlərin çulğalaşdığı, on illərlə şəhərin zəhmətkeş əhalisinin tikdiyi, qurub-yaratdığı nəhəng müəssisələr bağlanaraq «bazar iqtisadiyyatı və özəlləşmə» adı altında onlar şəhərin ayrı-ayrı vəzifəli adamlarını, imkanlı şəxslərin, əvvəlcə himayəsinə daha sonra tamamilə əllərinə keçərək on minlərlə inşaat və sənaye müəssisələrində çalışan fəhlələr və mühəndis-texniki işçilər küçələrə atılmış və Sumqayıt işsizlər ordusu şəhərinə çevrilməyə başlamışdı. Fikrimizə aydınlıq gətirmək məqsədilə, 1990-cı illərin əvvəlində respublikanın mərkəzi mətbuat səhifələrində Sumqayıtın sosial problemləri ilə əlaqədar verilmiş bir neçə jurnalist tədqiqatının nəticələri ilə tanışlıq, yaranmış vəziyyət haqqında dəqiq məlumat əldə etməyə imkan verir. Həmin qeydlərin-faktların bir neçəsini nəzərdən keçirək: Sumqayıt artıq nə «gənclik və yüksəliş şəhəri» kimi anılmır, nə də «ölkənin kimya və metallurgiya mərkəzi» kimi tərifi doğruldur. «Yenidənqurma»dan dərhal sonra kükrəyən, əslində bu şəhərin sakinlərinə kədər və vahimədən başqa heç nə gətirməyən Sumqayıt problemlər, ağrılar, üzüntülər şəhəri kimi respublikanın gözü qarşısında inləyir, kömək diləyirdi.

Lakin şəhərin o vaxtkı başçıları əlaqədar respublika təşkilatları bu sadə əmək adamlarının mətbuat səhifələrində səslənən həyəcanlarına məhəl qoymur, cavab vermirlər. Sumqayıtlıların haqlı şikayətləri isə azalmaq əvəzinə artırdı. Adamlar nə istəyirdilər? – Çox şey: Ehtiyacın min bir zərbəsinin dəf edilməsini, məşğuliyyət və qayda-qanun.

Sumqayıtın vəziyyəti isə ildən-ilə ağırlaşmış və nəhayət, aydan-aya artan şiddətlənən problemlərinə bir az da dərindən nüfuz etmək üçün «Xalq» qəzetinin jurnalist qrupu bir neçə gün bu şəhərdə olmuşdu. Şəhər İcra Hakimiyyətində, ayrı-ayrı idarə və təşkilatlarda, əmək kollektivlərində və ictimai yerlərdə aparılan araşdırmalar, müşahidə və söhbətlər Sumqayıtın kəsilmək bilməyən iniltilərinin səbəblərini müəyyən dərəcədə öyrənməyə imkan verdi.

Abşeron yarımadasının müxtəlif yerlərinə səpələnmiş əmək birjalarına – «qul bazarları»na çıxanların bir çoxunun Sumqayıtın iflic olmuş müəssisələrindən gələnlər olduğunu əvvəllər də bilirdik. Sumqayıta ezamiyyətimiz belə «birja»lardan birindən başlandı. Çox da uzağa getmədik. Redaksiyamızın beş-on addımlığında – Mahnı Teatrının yaxınlığındakı izdihamın yanında maşını saxlayan kimi toplaşanlar qapını açmağa macal vermədilər. Vaxtilə Sumqayıt müəssisələrində halal çörəyini qazanan, özünü və başqalarını yedirdən, bu sadə əmək adamları indi bir gündəlik ehtiyac ucbatından hər cür iş görməyə, mənzillərdə və həyətlərdə zibil atmağa, təmir işləri aparmağa, yük daşımağa hazırdırlar. Təki axşam balalarının yanına üzüqara qayıtmasınlar. Birtəhər adamları aralayıb maşından yerə düşdük. Sumqayıtdan olanlarla söhbətləşmək istədiyimizi bildirdik. Acı bir təbəssümlə hər yerdən dilləndilər ki, hamımız Sumqayıtdanıq. Əksəriyyəti Boru-yayma istehsalat birliyinin işçiləri idi. Ehtiyacın sıxıb əzdiyi, nimdaş görkəmləri ürək ağrıdan, əksəriyyəti gənclər olan bu zəhmətkeş adamlar dayanmışdılar. Aylardan bəri iş yerləri bağlanmış «uzunmüddətli məzuniyyətə» buraxılmış Sumqayıt metallurqları, kimyaçıları, inşaatçıları, müxtəlif peşə sahibləri dərinləşən böhranın cilovlanmasını, iqtisadiyyatın dirçəldilməsini istəyirlər. Bu adamların ən böyük arzusu tezliklə

iş yerlərinə qayıtmaq, bədnam «əmək birjaları»ndan canlarını qurtarmaqdır. Onlar bildirdilər ki, Boru-Yayma Birliyi neçə aydır ki, işləmir. Müəssisənin bir nəfər də rəhbər işçisi bundan ziyan çəkməyib. Günü qara olan zəhmət adamlarıdır. O cür böyük istehsalın dayanmasını, vaxtında tədbirlər görülməməsini fəhlələr əsl cinayət adlandırırdılar. Əli işdən üzülmüş nadir peşə sahibləri başqa sahələrə keçir, sənətlərinin incəliklərini yadırğayırlar. Sobalarda əridiləsi qara metal ehtiyatı isə dəyər-dəyməzinə xaricilərə satılır (əlbəttə, «şapka əməliyyatı» istisna olmamaqla), müəssisənin sabahkı işi də zərbə altına qoyulur. Kimya müəssisələrinin anbarlarındakı məhsullar nədənsə satılmır. Perspektivsiz islahatların taleyi həll edilmir.

Kimdir təqsirkar? Yığışanlar bir nəfər kimi bildirirdi: aşağıdan yuxarı şəhərin rəhbər işçiləri. Vaxt ötür, onlar isə vəziyyəti dəyişdirə bilmirlər. Fəhlələrdən biri bizim bir çoxumuzun qiymətləndirə bilmədiyimiz həqiqətə toxundu. O, dedi ki, qardaş, vuruşa bilmədik, torpaqları dalbadal düşmənə təslim elədik. Allah Heydər Əliyevin canını sağ, işini avand eləsin. Gördü ki, bu vəziyyətdə müharibə aparmaq olmaz. Güc toplayıb, düşmənə bir zərbə vurdu – onu atəşkəsə məcbur elədi. Yaxşı, işləməyə söz nədir? İki ili niyə aşağı pillədəki rəhbərlər yelə verdilər? Biz düşməni iqtisadi gücümüzlə məğlub etməlik, ancaq oturmuşuq boş-bekar. Bu, ölkəyə qarşı iqtisadi təxribata bərabərdir.

Sumqayıtın sadə adamları bildirdilər ki, obyektiv çətinliklər onlara da məlumdur: müharibə, iqtisadi əlaqələrin pozulması, blokada və s., lakin qeyrət, canıyananlıq, ölkə prezidentinin şəxsi nümunəsi səviyyəsində səylər olsaydı, Sumqayıtın indiki vəziyyəti bundan xeyli yaxşı olardı.

Sumqayıtda xalq sıxıldıqca, bir qrup varlanırdı. Sumqayıt iqtisadiyyatında böhranlı vəziyyət yaranmışdı. Fikrimizə aydınlıq gətirmək üçün statistika göstəricilərinə nəzər salaq. Şəhərin və respublikanın böyük müəssisəsi olan Boru-Yayma İstehsalat Birliyi 1990-cı ildə 492 min 634 ton, 1991-ci ildə 411 min 311 ton polad boru istehsal edibsə, 1993-cü ilin 5 ayı ərzində müvafiq məhsul buraxılışı cəmi 9 min 848 ton idi. Kompressorlar zavodunda da vəziyyət acınacaqlı idi. Əvvəllər bütün SSRİ-də məişət soyuducuları üçün kompressorlar hazırlayan nəhəng müəssisədə 1990-cı ildə 1 milyondan artıq kompressor hazırlanmışdısa, 1993-cü ildə həmin göstərici 57 min 818-ə enmişdi. Digər müəssisələrdə vəziyyət heç də bundan yaxşı deyildi.

1993-cü ilin I rübündə istehsal olunan sənaye məhsulunun həcmi cəmi 145,6 milyard rubl idi ki, bu da 1992-ci ilin müvafiq dövrü ilə müqayisədə istehsal 23,6 % aşağı düşmüşdü [1, s. 348].

1992-ci il 1 yanvar məlumatına görə şəhərdə 1981-1991-ci illərdə həbsdən azad edilmiş 2812 nəfər adam yaşayırdı ki, bunların 716 nəfəri, yaxud üçdə biri 1988-ci il Sumqayıt hadisələri zamanı həbs olunanlar idi [4, s. 31-32].

1992-ci ildə şəhərdə gərgin kriminogen vəziyyət yaranmış – 1336 cinayət hadisəsi qeydə alınmışdı. Onların sayı əvvəlki 1991-ci illə müqayisədə bir çox hallar üzrə: xüsusən ağır cinayətlər 2 dəfə, şəxsi əmlakın oğurlanması 3,3 dəfə, quldurluq və soyğunçuluq 2,8 dəfə, qəsdən adam öldürmə faktı 2,3 dəfə çoxalmışdı. Getdikcə artan cinayətkarlığa qarşı mübarizədə şəhərin hüquq-mühafizə orqanları, o cümlədən də polis şöbəsi tərəfindən zəif mübarizə aparıldığından kriminogen vəziyyətin kəskinləşməsi nəticəsi idi. Həmin ildə cinayət axtarış xətti üzrə 654 cinayət qeydə alınmışdı. İctimai asayişin mühafizəsi, nəzarət, profilaktika və əməliyyat işlərinin təşkilində ciddi qüsurlara yol verildiyindən cinayət hadisələrinin vaxtında açılması işi zəif təşkil edilmiş, açılma faizi xeyli aşağı düşmüş – 60,7 % olmuşdu. Belə ki, 21 qəsdən ölüm hadisəsindən 14-ü, 510 şəxsi əmlakın oğurlanmasından 260-ı, 286 mənzil oğurluğu faktından 53,6%-i, ümumiyyətlə, 221 ağır cinayətin yalnız 139-u açılmışdı. Göstərilən cinayətlərin əksəriyyəti

təşkil olunmuş qruplar tərəfindən həyata keçirilmişdi. 12 cinaəytkar hələ də axtarışda idi. Ən çox cinayət hadisələri şəhərin I və II polis bölmələrinin ərazisində baş vermişdi. Bu bölmələrdə cinayətlərin açılma faizi 59,4% idi. Ümumiyyətlə, hər üç polis bölməsində cinayətlərin xarakteri, onları doğuran səbəblər dolğunluğu ilə araşdırılmamış, cinayətkar ünsürlərin toplandığı yerlər qabaqcadan müəyyənləşdirilərək qəti tədbirlər görülməmişdi [2, v. 1-6].

Cinayətkarlığın çoxalmasının əsas səbəblərindən biri də şəhərdə işsizliyin artması, gənclərin ictimai-faydalı əməyə zəif cəlb edilməsi və həbsdən azad olunanların müvafiq iş yerləri ilə vaxtında təmin olunmaması idi. Müəssisə rəhbərləri də bu vacib məsələyə soyuq münasibət bəsləyirdilər. Şəhərin tədris müəssisələrində təlim-tərbiyə işlərində, məktəbdənkənar tədbirlərin keçirilməsində buraxılmış qüsurlar üzündən azyaşlılar arasında cinayət hallarının sayı çoxalmışdı. 1992-ci ildə yeniyetmələr tərəfindən 106 cinayət hadisəsi törədilmiş, 56 yeniyetmə cinayət məsuliyyətinə cəlb olunmuşdu.

Alkoqolizm və narkomaniyaya qarşı profilaktika işində də çatışmamazlıqlar mövcud idi, sahə müvəkkilləri, bölmə rəisləri bu sahədə öz işlərini günün tələbləri səviyyəsində qura bilməmişdilər. Şəhərdə 511 nəfər alkoqolik və109 nəfər narkoman qeydə alınmışdı. İl ərzində 99 cinayət hadisəsi bilavasitə sərxoşlar tərəfindən törədilmişdi [2, v. 1-6].

Şəhərdə yol-nəqliyyat hadisələrinin vəziyyəti də gərgin olaraq qalırdı. 1992-ci ildə baş vermiş 110 yol-nəqliyyat hadisəsi zamanı 36 nəfər ölmüş, 110 nəfər ağır yaralanmışdı. Ən çox hadisələrin Koroğlu, Bakı, S.Vurğun, N.Nərimanov küçələrində baş verməsinə baxmayaraq bu küçələrdə belə hərəkətin nizamlanmasına, yol-hərəkət qaydalarına riayət edilməsinə zəif nəzarət olunurdu.

1992-ci ildə şəhərdə sabitliyin pozulmasının və sosial problemlərin gərginləşməsinin səbəblərindən biri də öz ata-baba yurdlarından – Qərbi Azərbaycandan qovulmuş 200 min azərbaycanlının 18 min 330 qaçqın ailəsinin Sumqayıta gəlib sığınacaq tapması keçmiş SSRİ-dən və Müstəqil Dövlətlər Birliyinin buraya gələn 1.830 nəfəri qayğıları, əlavə şəhərdə yaşayan 31 min 89 nəfər təqaüdçünün, o cümlədən 819 nəfər Böyük Vətən müharibəsi iştirakçısının, bu müharibədə ailə başçısını itirmiş 213 nəfər ailənin, 408 nəfər sovet-əfqan müharibəsi iştirakçısının və b. şəxslərin problemləri Sumqayıtda vəziyyəti daha da gərginləşdirmişdi [3, v. 4].

Heydər Əliyevin respublikada hakimiyyətə gəldiyi ilk dövrlərdə bütün ölkədə, onun ayrı-ayrı regionlarda xalqın ağır sosial-iqtisadi vəziyyəti ilə bərabər gərgin ictimai-siyasi vəziyyət onun bütün səy və cəhdlərinə baxmayaraq yenə də davam edirdi. Azərbaycan dövlətçiliyini zəiflətməyə, onu dağıtmağa cəhd edən respublikanın keçmiş rəhbərliyinin uğursuz kadr siyasətindən istifadə edən seperatçı qüvvələr Heydər Əliyevin ölkədə keçirmək istədiyi dəyişikliklərə əksərən gizli, bəzi hallarda isə açıq müqavimət göstərməyə çalışır, xarici qüvvələrlə birləşərək görkəmli dövlət xadimi və böyük siyasətçinin respublikanı yaranmış ağır vəziyyətdən çıxarmağa doğru istiqamətləndirilən xəttinə mane olmağa çalışırdılar. Odur ki, 1993-cü il – 1995-ci illərin ikinci yarısında Heydər Əliyevin başı bu qüvvələri əvvəl bitərəfləşdirmək, daha sonra onlara qarşı ciddi mübarizə mərhələsi kimi qiymətləndirilməlidir. Keçmiş iqtidar – Azərbaycan Xalq Cəbhəsi, Müsavat, AMİP və b. repsublikanı siyasi böhrana və iqtisadi cəhətdən iflis vəziyyətinə salınmasına çalışırdılar. Vaxtı ilə keçmiş İttifaqda böyük sənaye mərkəzi – metallurgiya və kimya sənayesinin nəhəng ocağı kimi şöhrət qazanmış Sumqayıt şəhərinin də ağır sosial-iqtisadi, gərgin siyasi vəziyyətə düşməsindən də yan keçməmişdi.

Şəhər İcra hakimiyyətinin o zamankı rəhbərliyi sözdə bir sıra «əməli işlər gördüklərini» rəsmi şəkildə protokollaşdırsalar da, həqiqətən də real həyatda bunların heç bir

müsbət təsiri hiss edilmirdi. Məs., 1995-ci ilin 13-17 mart hadisələri ilə əlaqədar respublikada ictimai-siyasi hadisələrə həsr olunmuş ümumxalq nümayəndələrinin iyunun 23-24-də Bakıda Respublika sarayında toplanmış yığıncağının qərarlarını müdafiə edən Sumqayıt şəhər XDS Rəyasət Heyətinin üzvləri respublika prezidenti Heydər Əliyevə xüsusi məktubla müraciət edib Azərbaycan dövlətçiliyini real təhlükədən qoruyan görkəmli siyasətçinin, yenilməz iradəsi onun məqsədyönlü daxili və xarici siyasətini müdafiə etmişdilər.

### *ƏDƏBİYYAT*

1.Azərbaycanın 2004-cü il üçün statistik göstəriciləri. Dövlət Statistika Komitəsinin nəşriyyatı. Bakı, 2005, 846 s.
2.Fond 159, siy. 2, iş 49, 25 dekabr1992.
3.Fond 159, siy. 2, iş 20, 24 avqust 1991.
4.Садыгов Г.Ш., Мамедов Р.С. Армяне в Сумгаите. Книга первая. Историко-социалистический очерк (1938-1994 гг.). Баку, «Шур», 152 с.

**АЛЫЕВ Г.А.**
***Сумгаитский государственный университет***

## СОЦИАЛЬНЫЕ ПРОБЛЕМЫ СУМГАИТА И КРИМИНОГЕННАЯ ОБСТАНОВКА В ГОРОДЕ В 1991-1993 ГОДАХ

В отмечкенный период Сумгаит находился в тяжелом положении: серьезные экологические и социальные проблемы, разбазаривание земель города чиновниками под видом и рыночной экономики и приватизации, сокращение рабочих и инженерно-технических работников, увеличение армии безработных. Об этих фактах сообщалось в периодической печати республики. Автор данной статьи рассматривает события, происходившие в то время в Сумгаите, и пытается найти виновников.

**ALIYEV H.A.**
***Sumqait State University***

## SOCIAL PROBLEMS OF SUMQAIT AND CRIMINAL SITUATION IN CITY IN 1991-1993

In noted period Sumqait was in hard situation: serious ecology and social problems, squandered city lands by bureaucrats by name of market economy and privatization, staff reduction of workers and engineering-technical workers, reasing of unemployed army. All these facts were light up in republic's newspapers. The author of this article looks through events of this period in Sumqait and tries to find culprit.

***Rəyçilər: t.e.n.R.V.Əhmədov, t.e.d.R.C.Süleymanov.***
***Sumqayıt Dövlət Universiteti Azərbaycan tarixi (humanitar ixtisaslar üzrə) kafedrasının 27 yanvar 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №07).***